2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İlkin Şahbazovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 5 sentyabr 2024-cü il tarixli 56 saylı müraciəti üzrə

# RƏYİ

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 94 saylı Ucar seçki dairəsi üzrə Müsavat Partiyasından qeydə alınmış namizəd İsmayıl Zakir Ağaəli oğlu 5 sentyabr 2024-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü bəzi seçki məntəqələrində qanun pozuntularının baş verdiyini iddia edərək, dairə seçki komissiyasının protokolunun surətunun ona verilmədiyini bildirmiş və həmin seçki dairəsi üzrə səsvermənin nəticələrinin ləğv edilməsini xahiş etmişdir.

Mən, ekspert qrupunun üzvü İlkin Şahbazov həmin müraciəti araşdırarkən aşağıdakıları müəyyən etdim:

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, səsvermə günü seçki məntəqələrində iddia olunan pozuntularla bağlı hissədə şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin həmin hissədə geri qaytarılması barədə rəy vermişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə görə seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Seçki Məcəlləsinin 112-1.14.1-ci maddəsinə əsasən şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Müraciət dairə seçki komissiyasının protokolunun verilməməsi hissəsində araşdırılmış və müəyyən edilmişdir ki, verilməməsi iddia edilən dairə seçki komissiyasının protokolunun surəti şikayətçi tərəfindən şikayətə əlavə edilmişdir. Həmçinin 94 saylı Ucar seçki dairəsi dairə seçki komissiyası tərəfindən təqdim edilmiş arayışa əsasən protokolun təsdiq edilmiş surəti poçt vasitəsi ilə namizəd Z.A.İsmayılın ünvanına göndərilmişdir.

Beləliklə, protokolun surətinin namizədə verilməsi dairə seçki komissiyası tərəfindən təmin edildiyindən müraciət həmin hissədə əsassız hesab edilməlidir.

Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **rəyə gəldim:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 94 saylı Ucar seçki dairəsi üzrə Müsavat Partiyasından qeydə alınmış namizəd İsmayıl Zakir Ağaəli oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 5 sentyabr 2024-cü il tarixli 56 saylı müraciəti seçki məntəqələrində iddia olunan pozuntularla bağlı hissədə qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən ərizəçiyə geri göndərilsin,

dairə seçki komissiyasının protokolununun surətinin ona verilməməsi hissəsində isə müraciət əsassız olduğundan təmin edilməsin.

2. Rəy qəbul ediıdiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü İlkin Şahbazov